## Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) sənədinin hazırlanması təqvimi

| Təqdim edən | Qəbul edən | Tarix | Açıqlama |
|---|---|---|---|
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Fevral ayının 5-dək | - dövlət büdcəsinin əsas icra göstəriciləri |
| | | | - növbəti il və sonrakı üç il üçün ilkin proqnoz göstəriciləri, gəlirlər, o cümlədən neft və qeyri-neft gəlirləri (tədiyə növləri üzrə) |
| | | | - Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddi |
| | | | - xərclər, o cümlədən cari, əsaslı və dövlət borcuna xidmətlə bağlı xərclər |
| | | | - dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi mənbələri |
| | | | - dövlət büdcəsinin xarici valyutada olan xərcləri barədə məlumat |
| | | | - ortamüddətli dövr üzrə dövlət borcu ilə bağlı göstəricilər |
| | | | - birbaşa dövlət borcu və verilmiş dövlət zəmanətlərinin həcmi, dövlət borcalmaları və borc üzrə ödənişlər |
| Azərbaycan Respublikasının Mərkəzi Bankı | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Fevral ayının 5-dək | pul siyasətinin növbəti və sonrakı üç il üçün başlıca istiqamətləri və strateji çərçivəsi |
| | | | monetar sektor üzrə ətraflı faktiki statistik məlumatlar (pul bazası, pul aqreqatları, pul icmalı, Mərkəzi Bankın analitik balansı, həmçinin Mərkəzi Bankın əməliyyatları) |
| | | | tədiyə balansı üzrə ətraflı faktiki statistik məlumatlar (cari hesab, kapital hesabı, maliyyə hesabı, həmçinin xarici borc və onun dəyişməsi, xalis aktivlərdə dəyişmə və beynəlxalq ehtiyatlar) |
| Azərbaycan Respublikasının Dövlət Neft Fondu | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Fevral ayının 5-dək | Dövlət Neft Fondunun növbəti il və sonrakı üç il üçün xam neftin müxtəlif ortaillik ixrac qiymətlərinə uyğun hesablanmış gəlir və xərclərinin proqnozu |
| | | | neft-qaz sahəsində hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən ödəyicilərin hasilat göstəriciləri |
| | | | Dövlət Neft Fondunun vəsaiti hesabına həyata keçirilən layihələrin maliyyələşdirilməsi üçün sifarişçi təşkilatların vəsait ehtiyacı barədə proqnoz məlumatı |

| | | | |
|---|---|---|---|
| | | | Dövlət Neft Fondunun aktivlərinin orta gəlirlilik dərəcəsi |
| Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondu | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Fevral ayının 5-dək | cari il gözlənilən, növbəti il və sonrakı üç il üçün gəlir və xərcləri, ortaaylıq əməkhaqqı, yaşayış minimumu, minimum əməkhaqqı, ehtiyac meyarı, məşğulluq, sosial və demoqrafik göstəricilər barədə məlumatlar |
| Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Fevral ayının 5-dək | idxal-ixrac əməliyyatları üzrə əvvəlki ilin faktiki göstəriciləri, cari il gözlənilən, növbəti il və sonrakı üç il üçün isə proqnozlaşdırılan məlumatlar |
| Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Fevral ayının 5-dək | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təqdim etdiyi formaya uyğun olaraq əvvəlki il üçün ilkin statistik məlumatlar |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Büdcənin tərtibində iştirak edən təşkilatlar | Feval ayının 15-dək | ortamüddətli xərclər çərçivəsinin hazırlanması üzrə təsdiq olunmuş təfsilatlı təlimatlar |
| Dövlət büdcəsinin funksional təsnifatının bölmələri üzrə aparıcı təşkilatlar (nazirliklər) Pilot dövrdə: Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi<br>Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Mart ayının 1-dək | Azərbaycan Respublikası Nazirlər Kabinetinin büdcə təşkilatları üçün müəyyən etdiyi qaydada hazırlanmış strateji planlar |
| Büdcənin tərtibində iştirak edən təşkilatlar | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Mart ayının 1-dək | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası tərəfindən təsdiq olunmuş **“Büdcə təşkilatlarının ortamüddətli dövr üçün baza proqnozlarının və yeni siyasət təşəbbüslərinin hazırlanmasına dair Təlimat”** və **“Büdcə təşkilatlarının ortamüddətli dövr üçün proqram (tədbir) üzrə fəaliyyət planının hazırlanmasına dair Təlimat”a uyğun olaraq hazırlanmış** kreditlər, qrantlar və ya digər maliyyələşmə formalarından asılı olmayaraq, növbəti il və sonrakı üç il üçün bütün mövcud və davam etməkdə olan layihələr üzrə baza proqnozları və yeni siyasət təşəbbüsləri (YST) ilə bağlı sifarişləri, eləcə də proqram (tədbir) üzrə fəaliyyət planları |
| Büdcənin tərtibində iştirak edən təşkilatlar | Azərbaycan Respublikasının | Mart ayının 1-dək | davam edən layihələrin əsaslı xərclərinə dair məlumatlar, yüksək prioritetli yeni investisiya təklifləri |

| | | | |
|---|---|---|---|
| | İqtisadiyyat Nazirliyi | | |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Aprel ayının 1-dək | ortamüddətli dövr üçün icmal büdcə və dövlət büdcəsi ilə əlaqədar məlumatlar |
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Azərbaycan Respublikasının Mərkəzi Bankı | Aprel ayının 8-dək | Maliyyə Nazirliyinin təqdim etdiyi sənədlərə uyğun olaraq dürüstləşdirilmiş sosial-iqtisadi proqnoz göstəriciləri |
| Azərbaycan Respublikasının Mərkəzi Bankı | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Aprel ayının 15-dək | ortamüddətli monetar siyasət göstəriciləri ilə uyğunlaşdırmaq məqsədi ilə təqdim olunmuş məlumatlara əsasən “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanının 4.3.2-ci yarımbəndində qeyd olunmuş pul siyasətinə dair dəqiqləşdirilmiş məlumatlar, cari və növbəti il üzrə pul proqramı, həmçinin monetar sektora dair cari ilin gözlənilən, növbəti il və sonrakı üç il üçün isə dəqiqləşdirilmiş proqnoz göstəriciləri və tədiyə balansının proqnozuna dair rəy |
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | May ayının 1-dək | ortamüddətli sosial-iqtisadi proqnoz göstəriciləri və dövlət investisiya proqramının istiqamətləri |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Azərbaycan Respublikasının Nazirlər Kabineti | Sentyabr ayının 15-dək | OMXÇ sənədinin layihəsi |
| | Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası | | |
| Azərbaycan Respublikasının Nazirlər Kabineti | Azərbaycan Respublikasının Prezidenti | Sentyabr ayının 25-dək | OMXÇ sənədinin layihəsi |